# Könül qönçələndi gül budağında, Açdıqca, həsrətdən həsrətə düşdüm.



**Rüfət ARAZ**

Həm ata, həm ana tərəfdən Qafqaz türklərindən olan Rüfət Araz 1949-cu ildə Ərcişdə dünyaya gəlib. İlk və orta təhsilini İqdırda alıb. 1976-cı ildə Ərzurum Atatürk Universitetinin ədəbiyyat fakültəsinə daxil olub. Bədii yaradıcılığa da elə həmin illərdə başlayıb. "Ümid mövsümü", "Sonsuzluq" "Ömür", "Bir ürək döyünür" və s. şeir kitablarının müəllifidir.

Rüfət Araz gözəl şeirlər yazmaqla yanaşı, elmi fəaliyyətlə də məşğul olub, türk folklorundan dissertasiya yazıb.

Şeirləri Türkiyədə keçirilən müsabiqələrdə dəfələrlə birinciliyə layiq görülüb.

## AĞRI DAĞI

Ey yaşıl obaların köksündən yüksələn dağ,
Göy səninlə bölüşür sevincini, yasını.
Ey könlümün azman şah tağından yüksələn dağ,
Sevdalı gül əlində - buldum xəsləar xəsəm.

Ürəyimdə bir eşqin nə şirin özləmi var.
Novruz çiçəklərində rənglərin ehtişamı.
Bəzmi-ələstdən gələn bir əhdin aləmi var, -
Ömrə şahid elədik solğun üzlü axşamı...

Ey məni dosta çəkən sevgi və ümid dağı,
Bir həsrət atəşidir beynimi saran əfkar.
Yer üzünü göylərə bağlayan həyat dağı,
Sənin kimi mənim də içimdə vulkanlar var.

Quş uçmaz, karvan keçməz...
            başımdan düşdü tacım.
Söylə, necə ayrı yaşasın can sirdaşından?
Həsrət içində mudam çağlar,
            tükənməz acım.
Ürəyimə od düşüb yalnızlıq atəşindən.

Arazın nəğməsinə parlayan şəfəqində
Canlanan duyğuların Xəzərdə çalxalanır.
Xıdır əlləz dolaşan kutsal torpağında
Yaşıl otlar göyərir, qonça güllər halqalanır.

Qanayan qərənfilmi, yoxsa bu bir gümanmı,
Tarının tellərində inlədi bizim ellər...
Çəkdiyimiz hər çilə bir əzəli fərmanmı,
Ceyran gözlü Saranı apardı qanlı sellər.

Ey yuxunu gözünə haram eləyən ana,
Anlat Koroğlunu. Qaçaq Nəbini, Oğuzu.
Dədəm Qorqud yurduna xoş gün diləyən ana,
Ər gərəkdir qurtara əsir düşən yurdumuzu.

Kimi sirdaş elədin Məcnunun fəryadına,
Ətəyində sayrışan güllər incə, narın..
Mərsiyələr oxunur peyğəmbər övladına,
Dualar qədər təmiz, dualar qədər dərin.

Ey həsrət könlünü göylərə bağlayan dağ,
Çəkdiyin hər çilədə mənim də payım var.
Ey dərdindən əl çəkib, dərdlərə ağlayan dağ,
Qartal süzən zirvəndə bir ulu sarayım var.

Ən ağır günlərdə də səndən kəsilməz ümid,
Fərqi yox, zirvəndə qar olsun duman olsun.
Büllur bulaqlarında qaynayır abi-həyat,
Səndən bir yadigardır
            mavi göy - məndə qalsın...

## ALLAH DEYİR

Bir sevdanın sorağında
Dilim Allah-Allah deyir.
Qəlbimin vüslət çağında
Halım Allah-Allah deyir.

Tutuşdu bağrımın başı,
Sevənlər olurmuş naşı,
Çağladıqca gözüm yaşı,
Selim Allah-Allah deyir

Qərib qulam, çox acım var,
Nə biləsən nə sancım var?
Mövsüm-mövsüm, diyar-diyar
Gülüm Allah-Allah deyir.

Həsrət dolu eşq sarayım,
Susmaz inlər yanıq neyim.
Bu nə ömür? Günüm, ayım.
İlim Allah-Allah deyir.

Mənəm xəyal mənəm gerçək,
Bir yar sevdim - gözəl-göyçək,
Könül bağım çiçək-çiçək.
Balım Allah-Allah deyir.

Yerlər, göylər, dağlar, daşlar,
Haqqa səmt dönər işlər.
Ey sonsuza uçan quşlar.
Yolum Allah-Allah deyir.

## AH, BAĞDAD, BAĞDAD

De, ömrün-gününmü, bəxtinmi qara,
Mübarək alnında minlərcə yara.
Ürək dayanarmı bu ahu-zara,
Bu dövran ağlarmı, gülərmi, Bağdad?

Mosuldan, Kərkükdən gur səsin gəlir,
Nəcəfdən əsrarlı nəfəsin gəlir.
Uğrunda can vermək həvəsim gəlir,
Analı bir quzu mələrmi, Bağdad?

Göydən odmu yağır, axır - zamanmı.
Kərbəla torpağı büsbütün qanmı?
Peyğəmbər övladı yaşıl reyhanmı,
Al-al qönçələrin solarmı, Bağdad?

Nə dinclik bilirik, nə rahat yuxu,
Məsum baxışlarda əndişə, qorxu.
Nə zaman dağılar bu sitəm çarxı,
Görən, haqq nahaqqı dələrmi, Bağdad?

Bir həzin ağıdır bu can bazarı,
Qara qışa döndü ömrün baharı.
Kim yıxdı bu eşsiz cənnət diyarı,
Ellər gül balanı bələrmi, Bağdad?

Bu qopan fırtına, bu qurğudan bulud.
Ebabid dışında qırıq bir ümid.
Qan rənginə döndü atəşlə barıt,
Dərdin bir cihadı dilərmi, Bağdad?

## BİLMƏM

Eşqin ilə çox xoş oldum.
İlki bilməm, sonu bilməm.
Hara baxdım - səni gördüm.
Daha özgə yönü bilməm.

Dözəmmədi, yandı ürək.
Çiyninə qəm yığdı fələk.
Ömür çarxdı, zalım ələk.
Üyüdərmi canı, bilməm.

Su yanında bitər sünbül,
Mübtəladır gülə bülbül.
Budur bizim ərkan, üsul.
Saf sevgim var, kini bilməm.

Ta əzəldən bu haldayam.
Haqqa gedən bir yoldayam.
Mən elə bir ağıldayam.
Malı, mülkü, şanı bilməm.

Mənzil-mənzil, qübbə-qübbə.
Hər şey bağlı bir səbəbə.
Sevda elə enər qəlbə,
Unudaram, mən məni, bilməm.

# Heyrətdən süzüldüm, heyrana düşdüm!..

## QADİR MÖVLAM

Qadir mövlam, çöz bu sirri,
Çəkdim dağ çəkməyən qəhri.
İçdim yar əlindən zəhri.
Ağzım, dilim quru gəldim.

Səndə hökm, səndə fəlah,
Tövbə ilə ərir günah...
Mənliyimi sarar bir ah,
Yüz kəs öldüm, diri gəldim.

Əcəl ilə çıxdım yola,
Səndən öyüd ala-ala.
Qəlbim qəmlə dola-dola
Yarı qaldım, yarı gəldim.

Ya rəbb, bitsin bu intizar,
Sevinc, kədər səninlə var.
Aç qapını, belə naçar,
Belə qərib biri gəldim.

"Tale" dedim, gəldi başa,
Heç bənzəməz dolu boşa...
Çırpınaraq dağa-daşa,
Axıb sənə duru gəldim.

Mövlam, yazdan düşdü yolum,
Yenə açdı iman gülüm.
Tut əlimdən, aciz qulam,
Öz nəfsimdən bəri gəldim.

## GÜLDÜ BÖYLƏ

Çəkən bilir sevda nədir,
Dava nədir, qovğa nədir,
Könül gizli xəzinədir,
Bilməm nə vaxt doldu böylə.

Çarx misalı dönər zaman,
Yalan dünya verməz aman.
Necə sirr var, ayan-bəyan,
Məni məndən aldı böylə.

Nə huy, nə dil, nə irq, nə rəng,
Mən ahəng aradım, ahəng...
Bir sevda ki, aləmə dəng,
Can cananı buldu böylə.

## SALAM OLSUN

Canında can həsrətini
Çəkənlərə salam olsun.
Qəlbə zikrin hikmətini
Əkənlərə salam olsun.

Aləm dönər can üstünə,
Rəhmət enər an üstünə,
Gözyaşın dan üstünə,
Tökənlərə salam olsun.

Gündüz qəhr, gecə çilə,
Ürək necə gəlsin dilə.
Bir könüldən min könülə
Axanlara salam olsun.

Nəfsin istər zövqü-səfa,
Bilməz nədir çövrü-cəfa,
Gül əhdinə qılıb vəfa,
Qalanlara salam olsun.

## SƏNƏ DÜŞDÜ

Ulu Tanrım, güc ver mənə,
Eşq atəşi düşdü cana.
Pərvanətək yana-yana,
Səsim dördbir yana düşdü.

Səni anmaq oldu işim.
Qeylü-qalda qaldı başım.
Bilinməzə atdım daşım,
Məni bulmaq mənə düşdü.

Hər bir zərrəm dolu-dolu,
Səndən sənə çıxar yolum...
Bu aləmin qərib qulu
Gün içində günə düşdü.

Gecə qəmdə, gündüz əhdə,
Bu dərd ilə can fəlahda...
Bir ilahi nəzərgahda
Baş əyildi, önə düşdü.

Tərk eylədim hər bir tərki,
Eşq var ikən, nədi qorxu?
Ahım oyandırar xalqı,
Son ümidim sənə düşdü.

* * *

Bir sevdaya könül verdim,
Cənnət kokur baharından.
Çiçək-çiçək ədəb dərdim,
Bal süzülür gülzarından.

Göylər ona qucaq açar,
Ərş süslənər - nurun saçar.
Söz hal olar, haldan keçər,
Can tutuşur ikrarından.

Könül-könül yanmağı var,
Hər rəhmətdən qanmağı var.
Dostu-yarı anmağı var,
Aləm dönər əsrarından.

Bulud-bulud için tökər,
Tevhid oxur, dosta axar.
Gün eşq ilə bağrın yaxar.
Ay incələr ətəkarından.

Xətir sordum, sirrim açdım,
Yol içindən yola keçdim.
Xas bağçada bir gül seçdim,
Payım buymuş gül varından.

## GƏLMƏZ OLDU

Ya rəbb, qaldır məndən məni,
Candan yaxın bildim səni,
Neyləyirəm quru canı,
Ruh bədəndə qalmaz oldu.

Nə əndişə, nə də qorxu,
Dönüb durdu ümid çarxı,
Fərq eylədim əsl fərqi,
Bilən ağlım bilməz oldu.

Qəlbimdəkin dedi dilim,
Aldı əlim, verdi əlim...
Ayrılıqdan yeydir ölüm,
Canım dözdü, ölməz oldu.

Yazan sənsən hər halımı,
Görən sənsən əməlimi,
Ya rəbb, qırma, gəl könlümü,
Ömür yükün almaz oldu.

Saralıb soldu bənizim,
Qalarım, qalmazmı izim...
Haqq çağıran hər bir sözüm
Gül açdıqca solmaz oldu.

Çözən varmı bu əsrarı,
Duyan varmı bu əfkarı,
Könül oldu qəm diyarı,
Gedən geri gəlməz oldu.

## DÜŞDÜM

Bir qərib yolçuyam sevda yolunda,
Dolaşıb, qürbətdən-qürbətə düşdüm.
Könül qönçələndi gül budağında,
Açdıqca, həsrətdən həsrətə düşdüm.

Tapdım xoşbəxtliyin, tapdım sirrini,
Qəlbdən uzaq tutdum şeytan şərini.
Bir halal loxmaya alın tərini
Tökdükcə, hikmətdən hikmətə düşdüm.

Girdim bir könülə, qul oldu adım,
Bir bağrı közərmiş lalədi odum,
Bürüdü aləmi qəmim, fəryadım,
Ayrılıq güc gəldi, möhnətə düşdüm.

Nazlı yar yanında incəldi sözüm,
Camalın görüncə tutuldu gözüm,
Sonludan sonsuzadı yolum-izim,
Fərq etdim fərqimi - heyrətə düşdüm.

Ya rəbb, var edən sən, var olan sənsən,
Səndən başqa sən yox, bir olan sənsən,
Hər iki cahanda yar olan sənsən,
Mən necə mən dedim, qəflətə düşdüm.

## OLDUM

Mənə məndən yaxın olan,
Teldən oldum, sazdan oldum.
Ürəyimə bir od salan,
Yana-yana közdən oldum.

Nə güc qaldı, nə təhəmmül,
Ömrü sardı ərkan, üsul...
Bir izzətlə doldu könül,
Çoxdan oldum, azdan oldum.

Budur əməl, budur iman,
Varım, yoxum oldu talan,
Bir canım var, sənə qurban,
Həzzi buldum, həzdən oldum.

Əhlə yanar eşq ocağı,
Nə ucu var, nə bucağı,
Səni gözlər can otağı,
Səsdən oldum, sözdən oldum.

## GÖR

Ey könül, çəkdiyin eşq dənən dərdi
O burcu dağları sel alsın da gör.
Bir can oda düşdü, bir can cücərdi,
Sevdanın rəngini gül alsın da gör.

Bu dərddə üsul var, ar var, ədəb var,
Qulluq var, çilə var, hesab, kitab var.
Ölmədən ölümü duysan əzab var,
Nəfsin bu mənzildə yol alsın da gör.

Ömrüm dilə düşmüş - gedər köçümdə,
Niyazım ah eylər, ağlar seçumda.
Bir hümmət ocağı yanar içimdə,
Könül dost əlindən əl alsın da gör.

Mübtəla olmuşam Məcnun dərdinə,
Yanıram, düşmüşəm vüslət oduna,
Bilməm el-oba nə deyər adına,
Leylanı əlindən çöl alsın da gör.

Tale belə imiş, min yol sınadı,
Kimi "qismət" dedi, kimi qınadı,
Eşq üzündən mənim ağlım bunadı,
Əmanət yükünü qul alsın da gör.

*Hazırladı:*
***DİLSUZ***

